**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş Katibi Halil Akıncının Bakı Beynəlxalq Humanitar Forumunda çıxışı**

*(10-11 Oktyabr 2011)*

Hörmətli Dövlət Başçıları, Əziz Forum iştirakçıları,

Dünyanın qloballaşdığı, məsafələrin qısaldığı, millətlərin dövlətlərin önünə keçərək yaxınlaşdığı bir dövrdə Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Prezidentləri cənab İlham Əliyev və cənab Dimitri Medevedevin sədrliyi ilə Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi çox təqdirəlayiq haldır. Bu münasibətlə hər iki prezidentə öz təşəkkürümü bildirirəm.

Hazırkı dövrdə heç bir dövlət və ya millət dünyada baş verən proseslərdən kənarda qala bilməz. Prezidentlər tərəfindən irəli sürülən bu təşəbbüs alqışalayiqdir və digər ölkə başçılarının da bu təşəbbüsə qoşulmalarını vacib hesab edirəm.

21-ci əsrdə regional beynəlxalq təşkilatlar ümumi maraqların müəyyənləşdirilməsi, rifahın yaxşılaşdırılması, regional sülh və sabitliyin qorunmasında rolu artmaqdadır və ölkələr üçün humanitar standartlar yaratmaqdadırlar.

Bizim təşkilat yeni yaranmış bir təşkilatdır, yaranmasının bir ili hələ tamam olmamışdır. Təşkilatımız ortaq mədəniyyət və qardaşlıq bağlarına əsaslanaraq türk dövlətlərini özündə birləşdirir. Hal-hazırda 6 türk dövlətindən 4-ü - Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə qurumun üzvüdür və əsas məqsədimiz üzv ölkələr arasında qarşılıqlı etimad, dostluq və xoşqonşuluğun möhkəmləndirilməsi, region və ümumilikdə dünyada sülhün qorunmasına töhfə, siyasi, ticari-iqtisadi, mədəni, təhsil, enerji və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın təşviqi, tərəflərin xalqlarının həyat səviyyəsinin daim yüksəldilməsi və həyat şəraitinin yaxşlılaşdırılması məqsədilə bərabərhüquqlu tərəfdaşlıq əsasında birgə fəaliyyət vasitəsilə regionda hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsindən ibarətdir.

Digər 2 türk dövləti - Özbəkistan və Türkmənistanın da təşkilatımıza üzv olmasını istəyirik. Onların üzvlüyü ilə təşkilat bütün türk dövlətlərini əhatə etmiş olacaq və bu da qurumumuzun tam şəkildə fəaliyyət göstərməsinə gətirib

çıxaracaqdır. Bununla, təşkilatımız böyük bir coğrafiyanı əhatə etmiş olacaqdır – bu da böyük iqtisadi əməkdaşlıq sahəsi deməkdir.

Cari ilin 20-21 oktyabr tarixində Almatıda, Qazaxıstanda Dövlət Başçılarının iştirakı ilə təşkilatımızın birinci Zirvə Toplantısı keçiriləcəkdir. Zirvə toplantısının bəyannaməsində dünyada baş verən proseslərin və humanitar məsələlərin də əks olunması nəzərdə tutulmuşdur.

Birinci Zirvə  Toplantısının mövzusu "İqtisadi Əməkdaşlıq" olduğu üçün 13 oktyabr tarixində Astanada təşkilatımıza üzv olan ölkələrin İqtisadiyyat Nazirlərinin ilk iclası keçiriləcəkdir. Bu iqtisadi tərəqqinin humanitar təməldə də artırılması üçün mühüm tədbir olacaqdır.

Bununla yanaşı, təşkilatımızın çərçivəsində özəl sektorla dövlət arasında əməkdaşlığın inkişafına xidmət edəcək "Türk İş Şurası" (Turkic Business Council) yaradılacaqdır. Şuranın 2 oktyabrda Ankarada ilk hazırlıq toplantısı keçirilmişdir. Birinci Zirvə Toplantısı çərçivəsində "Türk İş Şurası" 4 üzv ölkənin iş adamlarının biznes forumunu təşkil edəcəkdir.

Türk Dövlətlərinin qonşu ölkələrlə münasibətləri strateji tərəfdaşlıq səviyyəsindədir. Təşkilatımız qonşu dövlətlərlə münasibətlərə mühüm önəm verir və xoş qonşuluq siyasətinə prioritet istiqamətlərdən biri kimi baxır.

Bakı Beynəlxalq Humanitar forumunun 11 oktyabrda keçiriləcək dəyirmi masalarının mövzuları da reallıqla tam ayaqlaşır və mən də "İnkişafın iqtisadi modelinin humanitar aspektləri" mövzusundakı dəyirmi masaya böyük məmnuniyyətlə qatılacağam.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bir sıra layihələri həyata keçirməyi planlaşdırır. Həmin layihələr arasında humanitar sahələri də əks etdirəcək layihələr də mövcuddur. Təşkilatımızın bu sahədə hər cür əməkdaşlığa hazır olduğunu bəyan edirəm.

Sonda bir daha Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Prezidentləri cənab İlham Əliyev və cənab Dimitri Medevedevə bu təşəbbüsə görə minnətdarlığımı bildirir, bir çox dövlət başçılarının da töhfəsi ilə bunun davamlı olacağına ümid edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.